Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 21 ” oktyabr tarixli
308 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 25-1.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən (bundan sonra – vəsait) istifadə qaydasını müəyyən edir.

1.2. Vəsait dövlətin mülkiyyəti hesab olunur, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) sərəncamındadır və onun sərəncamçısı dəyişdirilə bilməz.

### 2. Vəsaitin formalaşdırılması, gəlirlər və xərclər smetasının təsdiq edilməsi

2.1. Vəsait “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 25-1.1-ci maddəsinə əsasən aşağıdakılar hesabına formalaşdırılır:

2.1.1. icra sənədlərinin məcburi icrası ilə bağlı borclunun hesabından tutulan “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 78.3-cü maddəsində nəzərdə tutulmuş icra ödənişinin məbləği, habelə həmin Qanunun 79-cu maddəsində nəzərdə tutulmuş halda icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər ədliyyə orqanlarının xüsusi xəzinə hesabının vəsaiti hesabına ödənildikdə həmin xərclərin qaytarılması ilə bağlı vəsait;

2.1.2. cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin “İcra məmurları haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş məbləği;

2.1.3. Nazirliyin tabeliyində olan məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqq.

2.2. Vəsaitin toplanması və təyinatı üzrə istifadə edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində (bundan sonra - Agentlik) Nazirliyin xüsusi xəzinə hesabı açılır.

2.3. Vəsaitin hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq, dekabr ayı üçün isə həmin ayın 25-dək daxil olan vəsaitin dekabrın 26-sı (dekabrın 26-sı qeyri-iş gününə düşdükdə, növbəti iş günü) xüsusi xəzinə hesabına köçürülməsini Nazirlik və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra – Maliyyə Nazirliyi) təmin edir.

2.4. Vəsait xüsusi xəzinə hesabına köçürüldükdən sonra onun bu Qaydanın 3.1-ci bəndində qeyd olunan hissəsi Nazirliyin müraciəti ilə Agentlik tərəfindən üç iş günü ərzində Nazirliyin müvafiq xərc istiqamətləri üçün dövlət büdcəsinə köçürülür.

2.5. Vəsait xüsusi xəzinə hesabına köçürüldükdən sonra onun bu Qaydanın 3.2-ci bəndində qeyd olunan hissəsi Nazirliyin müraciəti ilə Agentlik tərəfindən üç iş günü ərzində Nazirliyin hesabına köçürülür.

2.6. Vəsaitin yığılması və istifadəsi gəlirlər və xərclər smetasına uyğun olaraq həyata keçirilir. Gəlirlər və xərclər smetası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"yə (bundan sonra – Əsasnamə) uyğun olaraq hazırlanır və təsdiq edilir.

## 3. Vəsaitin bölgüsü və ondan istifadə istiqamətləri

3.1. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanının 2.11.1-ci yarımbəndinə əsasən vəsaitin 60 faizi dövlət büdcəsinə köçürülür və tam həcmdə Nazirlik tərəfindən ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə sərf edilir.

3.2. Həmin Fərmanın 2.11.1-ci yarımbəndi nəzərə alınmaqla, vəsaitin qalan hissəsi bu Qaydanın 3.3.1-ci və 3.3.3 - 3.3.6-cı yarımbəndlərində nəzərdə tutulan məqsədlərə sərf edilməsi üçün Nazirliyin hesabına köçürülür.

3.3. Vəsait "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 25-1.2-ci maddəsinə əsasən aşağıdakı məqsədlərə sərf olunur:

3.3.1. ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə;

3.3.2. dövlət büdcəsinə köçürülməklə ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə;

3.3.3. ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin əlavə təhsilinə, ədliyyə orqanlarının maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə;

3.3.4. ədliyyə orqanlarında qulluq keçən (işləyən) və ya əvvəllər qulluq keçmiş (işləmiş) müharibə veteranı adı almış şəxslərin, habelə ədliyyə orqanlarında qulluq keçmiş (işləmiş) şəhid olmuş şəxslərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə;

3.3.5. icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin icraatda iştirak edən tərəflərin və digər şəxslərin vəsaitləri hesabına ödənilməsi mümkün olmadıqda həmin xərclərin ödənilməsinə;

3.3.6. ədliyyə orqanlarının elmi-texniki potensialının artırılmasına, elmi tədqiqat işlərinin aparılmasına, ədliyyə sahəsində innovativ həllərin öyrənilməsinə və tətbiqinə.

## 4. Vəsaitin uçota alınması və hesabatların təqdim edilməsi

4.1. Vəsaitin uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

4.2. Vəsaitdən istifadə olunması ilə bağlı hesabatların hazırlanması Əsasnaməyə uyğun olaraq icra edilir.

4.3. Köçürmələrin və bununla əlaqədar nəzarətin həyata keçirilməsi Nazirlik və Maliyyə Nazirliyi tərəfindən təmin olunur.

## 5. Yekun müddəalar

5.1. Vəsaitin istifadə olunması ilə bağlı digər məsələlər Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

5.2. Ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarına və digər işçilərinə, habelə onların ailə üzvlərinə ödənilən vəsaitdən gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və icbari tibbi sığorta haqqı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulur.